# İzmir: təbiəti, tarixi və Atatürk sevdalı insanları ilə seçilən Bakıya qardaş şəhər...



**Müsahibimiz Şəhər Mədəniyyət İdarəsinin müdiri Murat Karaçantadır.**

İzmir Şəhər Mədəniyyət İdarəsinin şəhərin mərkəzində – Konakda yerləşən qədim binasına gələn yolum keçmiş zəlzələnin dağıdıcı izlərinin hələ də qaldığı Bayraqlıdan keçir. 6,6 ballıq zəlzələdən bir ildən bir az çox vaxt keçsə də təbii fəlakətin dəhşətlərini izmirlilər bu gün də unutmayıblar. Şəhərin bütün məhəllələrini və ətraf vilayətləri silkələyən zəlzələ dağıntılar altından saatlar sonra xilas edilən Ayda, Elif və İnci kimi ümid rəmzinə çevrilən körpə uşaqlarla da yaddaşlara həkk olunub. Bir də Ataşəhərin girişində Çığlı bələdiyyəsinin qoyduğu heykəl fəlakət qurbanlarının xatirəsini yaşadır.

Şəhərdə indiki böhran dönəmində də dayanmayan inşaat işləri isə yeni bir ahənglə davam edir. Şəhərin rəmzi olan 200 metr yüksəkliyi ilə Avropanın 5-ci, Türkiyənin isə ən yüksək 2 əkiz qülləsi olan "Folkart Tovers" binaları əzəməti ilə göz oxşayır.

***Elə bu fikirlərlə İzmir Mədəniyyət İdarəsinə çatıram. Köhnə dostum Murat Karaçanta ilə çoxdan arzuladığım görüş hər ikimizə xoş əhval gətirir.***

Nə az, nə çox, təqribən 10 il bundan əvvəl azərbaycanlı jurnalistlərin Egey bölgəsinə səfəri zamanı tanımışdım Murat Karaçantanı. O zaman İzmirin qədim və tarixi yerlərindən sayılan Asansorda axşam yeməyində azərbaycanlı jurnalistləri salamlayan İzmir şəhər valiliyinin, şəhər bələdiyyəsinin rəhbər işçiləri sırasında Mədəniyyət İdarəsinin rəis müavini Murad Karaçanta və idarənin şöbə müdiri, jurnalistləri müşayiət edən Güzfent xanım Diləmrə də var idi. Sonralar da çox yaxın dost olduğum və İzmirə hər səfərimdə ziyarət etdiyim Güzfent xanım və Murat bəylə ilk tanışlığımız o vaxtlardan başlayır.

Əslində, bu tanışlıq jurnalist həmkarlarımın hər birində xoş ovqat yaratmışdı, xüsusən də Murat Karaçantanın olduqca səmimi və qayğıkeş, eyni zamanda, bizlərə sevgi dolu münasibəti hər birimizi duyğulandıran bir hadisə kimi qarşılanmışdı. Murat bəyin Azərbaycan əsilli olduğunu biləndən sonra bu hüsn-rəğbət bir qədər də artmışdı.

Sonralar tale bizi Bakıda da dəfələrlə görüşdürdü. Murat bəy Azərbaycandakı Türkiyə Səfirliyinə göndərildi, 6 ay səfirin mədəniyyət və turizm müşaviri vəzifəsində çalışdı. Bu müddətdə Azərbaycan–Türkiyə münasibətlərinin inkişafına töhfə verən çox maraqlı və uğurlu layihələrə imza atdı. Azərbaycanlı jurnalistlərin və turizm işçilərinin Türkiyəyə tanışlıq, iş birliyi qurmaq səfərlərinin təşkili, Bakı–İzmir təyyarə reysinin açılması üçün təkliflərin, ölkəmizin turist imkanlarının genişləndirilməsi üçün təyyarə biletlərinin və otel qiymətlərinin aşağı salınması ilə bağlı maraqlı təkliflərin müəllifi də Murat Karaçanta idi. XX əsrin əvvəllərində Bakını bolşevik-daşnak işğalından xilas edən qəhrəman Nuru Paşa haqqında sənədli filmin çəkilişi haqqında layihə də Murat bəyin ideyası idi. Onlarca belə layihənin bəziləri həyata vəsiqə alsa da, təəssüf ki, Murat bəyin Türkiyəyə dönüşündən sonra bir qismi yarımçıq qaldı.

Budəfəki İzmir səfərimdə də böyük məmnuniyyətlə İzmir Şəhər Mədəniyyət İdarəsinin qapısını döydüm. Güzfent xanım məzuniyyətdə olsa da, Murat bəylə görüşdük. O, Bakıdan dönəndən sonra uzun illər çalışdığı İzmirə yenidən təyinat almış, 2 il İzmir Şəhər Mədəniyyət İdarəsinin rəisi vəzifəsini icra etmişdi. Nəhayət ki, işgüzarlığını, turizmin təşkilində və mədəniyyət sahəsindəki çoxillik səmərəli fəaliyyətini nəzərə alaraq, 2020-ci ilin noyabrında həmin idarəyə rəis təyin olunmuşdu. İndi bu məsul vəzifəni daşıyan Murat bəy yenə də böyük həvəslə quruculuqdan, yeniliklərdən danışır.

Egey bölgəsinin Azərbaycan əsilli "mədəniyyət naziri"ndən gördüyüm isti münasibət, dost və qardaş qayğısı mənim üçün daha xoş duyğuların müjdəçisi olur. Bakıdakı qohumlarını və dostlarını soruşur, yaxşı tanıdıqlarımdan professor Ramiz Əskərin, Hikmət Babaoğlunun, Tənzilə Rüstəmxanlının, BDU-nun müəllimi Pərvanə İbrahimovanın adlarını çəkir...

***Tanışlıq üçün deyim ki, Türkiyənin Qars şəhərində doğulan Murat Karaçantanın babaları vaxtı ilə Türkiyəyə Qərbi Azərbaycandan–Amasiyadan köçənlərdən olub. Özü bu barədə söhbətlərində bildirirdi:***

–Ötən əsrin 20-ci illərində sovetlər yeni qurulanda Sibir sürgünündən can qurtaran babalarım Qarsa üz tutmuşlar. İllər uzunu burada yaşayıb ev-eşik sahibi olmuş və buraları Vətən bilmişlər. Onlar Qərbi Azərbaycandakı Amasiyanın Qaraçanta kəndindən idilər. Amma Vətəni unutmaq, ondan vaz keçmək heç vaxt mümkün olmayıb. Nənəm bu dünyaya göz yumanda Vətən, torpaq deyə-deyə, o tayda qalan doğmalarının, qardaşlarının adlarını çağıra-çağıra can verib. Babalarım kəndlərinin adını özlərinə soyadı kimi qəbul etmiş, doğma yurdyuvalarına olan həsrətlərini bununla dəf etməyə çalışmışlar. Şükürlər olsun ki, bu əmanəti nəslimizin onlarca övladları bu gün də şərəflə daşımaqda və qorumaqdadırlar.

Azərbaycanla bağlılığımızı heç vaxt itirməmişik. Əmioğlular, ən yaxın qohumlar ilə əlaqələr Azərbaycan müstəqilliyini qazandığı ilk günlərdən başlandı. Məmur kimi Bakıya – Türkiyə səfirliyinə təyinatım da taleyin bir xoş qisməti oldu. Azərbaycana böyük arzularla gəldim və burada gözlədiyimdən də böyük məhəbbətlə qarşılandım. Azərbaycanın bugünkü böyük uğurları, tarix səhifəsinə yazdığı Qələbə Zəfəri məni hər şeydən çox fərəhləndirir, xoşbəxt edir. Güclü, tərəqqi etmiş Azərbaycanın müstəqilliyinin ilk günləri ilə indisini müqayisə etdikcə, çox böyük qürur duyuram.

Ümummilli lider Heydər Əliyevin Türkiyədə dillər əzbəri olan "Bir millət–iki dövlət" kəlamı Türkiyə–Azərbaycan münasibətləri haqqında ən böyük tərifdir. Azərbaycan və Türkiyə barədə nə qədər yazılıb, söylənilsə də bu ifadədən yüksəyi yoxdur. Əslində, bu formula böyük Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" deyiminin davamı olaraq onun mahiyyətini tamamlayır. Türk dünyasının ünlü şairi Bəxtiyar Vahabzadənin iki misrasını xatırlayıram: "Bir ananın iki oğlu, Azərbaycan–Türkiyə".

Murat bəy daha sonra qeyd etdi ki, xalqlarımız və ölkələrimiz arasında əlaqələrin tarixi o qədər qədimdir ki, bu barədə günlərlə danışsaq da az olar. Xalqlarımız arasında çox güclü bağlar qədimdən mövcud olmuşdur. Bu, ulu keçmişə soy-kök, qan ortaqlığı, dil və din bağlılığı kimi amillər möhkəm özül olmuşdur. Amma fərqi yoxdur, adını nə qoyursunuz qoyun, həqiqət birdir: iki dövlət–bir millət! Aramızdakı bugünkü əlaqələr hər hansı bir təmənna əsasında qurulmayıb. Eyni zamanda, Türkiyə ilə Azərbaycanın yüksək səviyyəli münasibətləri bütün sahələrdə çox mükəmməl və sivil əsaslara söykənir. Təbii ki, bu ortaqlıq iki ölkə arasında mədəniyyət və turizm sahələrindəki işbirliyinə də möhkəm təməl yaratmışdır. İki ölkə arasında turizm əlaqəli 1992-ci ildə imzalanan "Turizm işbirliyi anlaşması" ilə rəsmiləşdirilib.

Bu gün də iki ölkə arasında bütün sahələrdə, eləcə də turizm sferasında böyük uğurlar əldə olunmaqdadır. Uzun illərdir ki, Türkiyənin bir çox şirkətləri Azərbaycanda turizm sektorunda böyük layihələrlə çıxış edirlər. Hətta ölkələrimiz arasında imzalanmış sənədlər, qarşılıqlı anlaşmalar da çox vaxt bizim olduqca isti olan qardaşlıq münasibətlərimizə sığışmır. Bizim hər işimizin təməlində böyük bir səmimiyyət var. İndiyə qədər iki qardaş ölkə arasında turizm, mədəniyyət və digər sahələrdə hər hansı bir problemlə üzləşməmişik, ümidvaram ki, bundan sonra da üzləşməyəcəyik.

15 iyun 2021-ci ildə Qarabağın siyasi mərkəzi olan Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın imzaladığı strateji tərəfdaşlığa dair Şuşa Bəyannaməsi iki ölkənin münasibətlərini ən yüksək səviyyəyə qaldırdı. Bakı və Ankaranın hərbi-siyasi, iqtisadi sahələrdə müttəfiqliklərini rəsmi şəkildə elan etməsi Azərbaycanın Cənubi Qafqazda yaratdığı reallıqlardan bəhrələnir. 44 günlük müharibədə qazanılan tarixi zəfərdən sonra region yeni nəfəs almağa başladı və durmadan dünyaya açılır. Bu, həm də Qafqazın və bütün türk dünyasının yenidən yazılan zəfər tarixidir.

Zəngəzur dəhlizinin açılışı isə Azərbaycanla Türkiyəni yeni bir nəqliyyat layihəsi ilə birləşdirəcək. Qərbdən Şərqə bu ən qısa yol Azərbaycan, həm də regionun digər ölkələri üçün mühüm töhfələr verəcək. Bölgədəki ölkələri coğrafi olaraq birləşdirən bu dəhliz onlar arasında təkcə iqtisadi əlaqələrin möhkəmlənməsində yox, həm də siyasi yaxınlaşma üçün yeni qapı açır.

***Murat bəy dedi ki, bu uğurlar Türkiyədə də böyük həyəcan və qürurla izlənməkdədir. Qarabağda aparılan quruculuq işləri və burada Türkiyənin yaxından iştirakı türk dünyasının birliyi yönündə aparılan işlərin davamıdır:***

–İndi Bakıdakı səfirliyimizin gördüyü işlərin vüsəti zəngin təəssürat yaradır. Bütün sahələrdə əlaqələrin möhkəmləndirilməsi, eləcə də mədəniyyət və turizmlə bağlı çoxsaylı tədbirlərin həyata keçirilməsi Türkiyə–Azərbaycan münasibətlərinə elə bir geosiyasi amilə çevirib ki, artıq bütün dünya bu reallıqlarla razılaşır. Bütün bunlar uğurlu fəaliyyətin bəhrəsi olaraq diqqəti cəlb edir. Təbii ki, tarixi qələbədən sonra bu işlərin və layihələrin həm sayının artmasına, həm də vüsətinin genişlənməsinə ümidlər daha da möhkəmlənir. İnam yararır ki, Azərbaycan ictimaiyyətinin və eləcə də mətbuat orqanlarının yaxından dəstəyi ilə bu işlər daha geniş çərçivədə davam etdiriləcək.

Murat bəyin dediklərinə əlavə edək ki, Gümüldür, Özdərə, Foça, Yeni Foca, Menderes, Karaburun, Səfərhisar və adlarını saymadığım onlarca məkanların sahilləri və çimərlikləri İzmir üçün böyük bir turizm əhəmiyyəti kəsb edir. Göz işlədikcə uzanan sahili, zəngin və saysız yaşayış məskənləri ilə İzmir təbii bir turizm və liman şəhəri olduğunu təsdiqləyir.

İzmir həm də müasir, inkişaf etmiş, eyni zamanda, işlək bir ticarət mərkəzidir. Hər zaman zəngin ticarət mərkəzində gəzmək olduqca ürəkaçandır. Antik çağların ən məşhur şəhərlərindən olan Efes dünyanın ən böyük şəhərlərindən biri idi. Antik mədəniyyətin zənginliklərini özündə saxlayan Efes bugünkü vəziyyəti ilə də şöhrətini qoruyub saxlayır. Uzaq tarixdə olduğu kimi, bu gün də İzmir Egey bölgəsinin birinci simasıdır.



İzmirin iqlimindən tutmuş yerləşdiyi coğrafi məkana qədər hər bir özəlliyi insanı heyran edir. Ən böyük sərvəti sayıla biləcək isti su qaynaqlarının çoxluğu, həqiqətən, bu bölgəyə Tanrının bir lütfü sayıla bilər. Egey sahili boyunca 629 kilometrlik məsafədə uzanan İzmir bu gün dünya çapında təkcə arxeoloji və tarixi abidələri ilə deyil, həm də geotermal qaynaqları ilə məşhurdur. Min bir dərdin dərmanı olan bu müalicəvi bulaqların çoxluğu isə İzmiri turizm üçün unikal bir bölgəyə çevirib.

Murat bəy söylədi ki, Türkiyə son dövrlərdə tibbi turizm sahəsində populyar ölkələr sırasına daxil olmağı bacarıb. Səhiyyə, iqtisadi və turizm nazirliklərinin birgə çalışmaları nəticəsində bu sektorun güclü inkişafı bütün dünyanı cəlb edir. Türkiyə diş, göz və estetik əməliyyatların ucuz başa gəlməsi və müxtəlif tibbi sahələr üzrə keyfiyyətli və modern xəstəxanaların olması ilə xarici vətəndaşlar arasında rəğbət qazanıb. Tibbi turizm çərçivəsində xəstəxanalar əcnəbi xəstələr üçün oteldə yerləşmədən tutmuş, hava limanına çatdırılmaya qədər çox geniş xidmət növlərini təklif edir.

Doğrudan da, Egey sahili boyunca uzun bir məsafədə uzanan İzmir bu gün dünya çapında təkcə Roma dövründə dünyanın ən böyük şəhərlərindən olan, antik mədəniyyətin zənginliklərini özündə saxlayan Efesin, Müqəddəs Məryəm Ana məbədinin arxeoloji və tarixi əsərləri ilə deyil, həm də iqlimi, təbii zənginlikləri, meyvələri və geotermal qaynaqları ilə məşhurdur. Dünyanın dörd bir yanından buraya üz tutub axın edən insanlar təkcə şəhəri ana kimi qolları arasına alan Egey dənizinin laciverd sularına baş vurmaqdan zövq almır, həm də buranın termal su hovuzlarının müalicəvi üstünlüyündən yararlanırlar. Bu da İzmiri turizm məkanı olaraq dünya miqyasında cəlbedici edir. Ziyalı, səmimi və Atatürk sevdalı adamları isə bu şəhərin ən böyük sərvətlərindəndir.

***Murat bəy sonda döyük ümidlə bildirdi ki, Egey bölgəsinin imkanları azərbaycanlı qardaşbacılarımızın diqqətini getdikcə daha çox cəlb edəcək:***

–Qardaş Azərbaycanın vətəndaşlarının da bu layihələrdə yer alması ümdə planlardandır. Təbii ki, belə layihələr, görüləsi işlər onlarcadır. Əminəm ki, azərbaycanlı qardaşlarım da bu xoş məramların həyata keçməsində öz köməklərini əsirgəməyəcəklər. Amma hər birimizin bildiyi, ata-babalarımızdan miras qalan bir yaxşı misal da var: niyyətin hara, mənzilin ora! Hər halda niyyətimiz xoş məramlara xidmətdir.

Uzun illərdir ki, Bakı və İzmirin adı qardaşlaşmış şəhərlər sırasındadır. Vaxtilə İstanbul və Ankaradan sonra azərbaycanlıların ən çox üz tutduğu ünvanlar Antalya, Alanya, Bodrum, Mersin idi. Uzun illər İzmiri bu siyahıda çox az görməkdə idik. İndi şükürlər olsun ki, son illərdə bu sahədə çox uğurlu və ümidverici işlər həyata keçirildi. İndi azərbaycanlıların İzmiri daha çox tanıması məni ürəkdən sevindirir. İllər boyu qardaşlıq ənənələri ilə bir-birlərinə daha çox bağlı olan bu şəhərlərin əlaqələrinin, xüsusən də turizm əlaqələrinin genişləndirilməsi bizim üçün də önəmlidir.

Pandemiyanın və inflyasiyanın Türkiyənin turizm sənayesinə vurduğu ağır nəticələr davam etsə də tədricən yeni bir canlanma yaşanır və problemləri aradan qaldırmaq üçün səylərimizi səfərbər etmişik. Azərbaycandan İzmirə 2021-ci ildə 40 minə qədər turist gəlib. İzmirdə çalışan azərbaycanlıların sayının getdikcə artması da diqqətçəkəndir. Şübhəsiz ki, bu, xeyli dərəcədə Azərbaycanın Egey bölgəsində yerləşən investisiya layihələri ilə bağlı olsa da, əsasən, davamlı inkişafda olan ölkələrarası əlaqələrin nəticəsidir.

***Namiq ƏHMƏDOV,***
***"Xalq qəzeti"***

**İzmir–Bakı**